**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNGİLİS YAZIÇISI CEYN OSTİNİN ROMANLARININ POETİKASI

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Sevinc Ənvər qızı Əziz**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin Jurnalistika və Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, dosent
**Həmidə Əhməd qızı Əliyeva**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Aytən Fikrət qızı Qəhrəman**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Səadət Xalid qızı Abdurəhmanova**

filologiya üzrə fəlsəfə doktoru
**Xumar Vəliyəddin qızı Abdullayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ filologiya elmləri doktoru, professor
**Azad Yəhya oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: ____________ filologiya üzrə fəlsəfə doktoru, dosent
**İradə Nadir qızı Sərdarova**

Elmi seminarın sədri: ____________ filologiya elmləri doktoru, professor
**Şahin Həmid oğlu Xəlilli**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XVIII əsrin sonu XIX əsrin əvvəllərində yaşayan Ceyn Ostin (Jane Austen, 1775-1817) yaradıcılığı ingilis ədəbiyyatında ədəbi-bədii sistemlərin dəyişdiyi və yeni bədi istiqamətlərin yarandığı dövrü əhatə edir. Bu səbəbdən yazıçının roman yaradıcılığı yaşadığı dövrün ədəbi-bədii istiqamətlərindən olan romantizmlə və formalaşmaqda olan realizmlə əlaqəlidir. Ceyn Ostinin romanları özündə dövrünün bədii sistemləri ilə yanaşı Maarifçiliyin estetik prinsiplərini də daşıyır.

Elə bu baxımdan yazıçının yazıb-yaratdığı dövrlə bu gün arasında zaman məsafəsi böyüdükcə Ceyn Ostinin dünya ədəbiyyatında danılmaz rolu aşkarlanır və onun kimi böyük yazıçının yaradıcılığını yeni dövrün baxış bucağından dəyərləndirmək zəruriyyəti ortaya çıxır.

Yazıçını birmənalı olaraq qadın ədəbiyyatı, qadın yazarı, feminist ədəbiyyat standartlarına ayıran ədəbi tənqid onun yaradıcılığında xüsusi bir istiqaməti – insanın ekzistensial problemlərinin bədii təcəssümünü gözə almamışdır. Ceyn Ostinin istənilən romanı insanın cəmiyyətdə yeri, cəmiyyətlə ziddiyyətli münasibətləri və qarşıdurması, sosial problemlərin həlli yollarının axtarışları ilə bilavasitə bağlı olub insanın arzu və istəklərini əks edir.

C.Ostinin sosial və iqtisadi problemləri aşa bilən qəhrəmanları öz mənəvi-ruhani dəyərlərini, insani keyfiyyətlərini heç vaxt itirmir, əksinə həyat mübarizələrindən alnı açıq çıxırlar. “Mensfild park” tərbiyə romanında Fanni əxlaq və mənəviyyatın daşıyıcısı kimi əsərin sonunda sevdiyi insanla nikaha girir, “Nortenger abbatlığı”ndakı Ketrin həyat gerçəkləri ilə qarşılaşanda pərəstiş etdiyi qotik romanla həyat arasındakı fərqi görür və belə yanaşma onu fərd kimi dəyişdirir, reallığı dərk etməsinə yol açır. “Qürur və qərəz” romanında Elizabet və Darsi həyat sınaqlarına qalib gəlir, onları əhatə edən yalançı və riyakar cəmiyyətin qayda-qanunlarından üstün olur, kübar dəyərləri təmkinlə, ədalət və qürur hissi ilə daşıyır, ali insani keyfiyyətləri qoruyub saxlayırlar. “Vatsonlar” romanın qəhrəmanı Emma isə yüksək mədəniyyəti, əxlaqi keyfiyyətləri ilə meşşan cəmiyyət qanunlarının fövqündə dayanır, sosial problemlərin qarşısında boyun əymir. Davranışları ilə ləyaqətli qadını təcəssüm edir.

İngilis mədəniyyətinin və eləcə də tarixinin müəyyən dövründə xüsusi rol oynayan C.Ostinin roman yaradıcılığı bütünlükdə Qərb romanının formalaşmasına təsir göstərmişdir. Biz XIX əsr ingilis romanının təşəkkül mərhələsində baş verən yenilikləri öyrənməklə milli ədəbiyyatşünaslığımızda xüsusi olaraq araşdırılmamış bu kimi problemlərin elmi dərkinin xüsusi aktuallığını və əhəmiyyətini vurğulamaq istərdik. Digər tərəfdən C.Ostinin romanlarında özünəməxsus şəkildə aşkarlanan maarifçilik ideyaları, romantizmin və realizmin bədii xüsusiyyətləri dövrün ədəbi-tarixi və bədii-estetik kontekstində aşkara çıxarılması da dissertasiyada mühüm aktuallıq kəsb edir. Belə ki, C.Ostin romanları dövrünün reallığı haqqında aydın təsəvvür yaratmaqla bərabər, ümumilikdə roman janrının ideya-məzmunu və üslubi-tematik problemlərinin müəyyənləşdirilməsinə imkan verir. İngilis romanının bütün bu və digər bədii keyfiyyətləri milli olduğu qədər də tipoloji səciyyəli olduğundan, onların tədqiqi tipoloji baxımdan aktual məsələ kimi meydana çıxır, tədqiqatımızın nəticələrinin nəzəri-metodoloji əhəmiyyətini önə çəkir.

C.Ostinin yeni roman janrının yaranmasında xidmətləri danılmazdır. Elə bu baxımdan yazıçının yaradıcılığı, xüsusilə romanları XIX əsrin əvvəlləri ingilis nəsrindəki vacib yenilikləri öyrənməkdə mayak rolunu oynaya bilər. Bu isə öz növbəsində C.Ostin romanlarının Azərbaycan ədəbiyyatşünaslığında yenidən öyrənilməsinə, yeni baxış bucağından tədqiq edilməsinə zəmin yaradır.

Təəssüflə qeyd edilməlidir ki, Qərb ədəbiyyatşünaslığında kifayət qədər geniş öyrənilən C.Ostin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında bir neçə tədqiqat işi və yazıçının Azərbaycan dilinə tərcümə edilmiş bir sıra əsərlərini çıxmaq şərti ilə dünya ədəbiyyatının korifeylərindən sayılan sənətkarın roman dünyası ayrıca və sistemli şəkildə tədqiqata cəlb edilməmişdir. C.Ostinin yaradıcılığı ilə bağlı müxtəlif vaxtlarda Böyük Britaniya, ABŞ, Kanada və Rusiyada araşdırmalar aparılmış, dərsliklər, monoqrafiya və məqalələr nəşr edilmişdir. C.Todd[1], K.Tomalin[2], D.Mensell[3],

[1] Todd, J. The Cambridge Introduction to Jane Austen. / J.Todd. – Cambridge University Press, – 2012. – 173 p.
[2] Tomalin, C. Jane Austen: A Life. / C.Tomalin. – New York: Alfred A. Knopf, – 1997. – 256 p.

V.Cons[4], R.İrvin[5], B.Heyli[6], Q.Bir[7], Ş.Yusupova[8], Y.Timoşenko[9], V.Nabokov[10], A.Məmmədova[11] və digər tədqiqatçılar Ceyn Ostinin ədəbi irsini öyrənsələr də yazıçının yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında ayrıca tədqiqat obyektinə çevrilməmişdir.

A.Məmmədovanın dilçiliyin problemləri müstəvisində C.Ostin romanlarının dil və üslub xüsusiyyətləri, C.Seyidzadənin C.Ostin yaradıcılığında psixologizm problemlərinin öyrənilməsinə baxmayaraq yazıçının roman poetikası ilk dəfə tədqiqat obyektinə çevrilir. Bu mənada C.Ostin romanlarının poetikasını araşdıran dissertasiyanın əhatə etdiyi mövzunun əhəmiyyəti və aktuallığı danılmazdır.

Dissertasiyanın əhəmiyyətini şərtləndirən amillərdən biri də tədqiqatda C.Ostin romanlarının nəzəri konseptual planda təhlilinin təqdim edilməsidir.

**Tədqiqatın obyekti və predmeti**. Ceyn Ostin romanlarının ingilis ədəbiyyatı tarixində yeri və rolu, onun romanlarına məxsus özəllikləri və yenilikləri roman poetikası müstəvisində aşkarlanması dissertasiyanın obyektini təşkil edir.

Tədqiqatın predmetini isə C.Ostinin erkən yaradıcılığında xüsusi yeri olan “İngiltərənin tarixi” və “Sevgi və dostluq” əsərləri ilə yanaşı, yazıçının yaradıcılıq zirvəsi sayılan “Mensfild park”,

---

[3] Mansell, D. The novels of Jane Austen: an interpretation. / D.Mansell. – New York: Macmillan, – 1993. – 338 p.

[4] Jones, V. Jane Austen’s Domestic Realism // The Oxford History of the Novel in English: English and British Fiction 1750-1820. Edit. Peter Garside and Karen O'Brien. Volume 2. – 2015. – 350 p.

[5] Irvine, R. Jane Austen. / R.Irvine. – London: Routledge, – 2005. – 190 p.

[6] Hayley, B. Jane Austen. Mansflield Park. / B.Hayley. – Longman, York Press. – 1995. – 120 p.

[7] Beer, G. Introduction. Persuasion. By Austen, Jane. / G.Beer. – London: Penguin Classics, – 2003. – 272 p.

[8] Юсупова, Ш. Б. Некоторые особенности и черты реализма в произведениях Джейн Остен // Актуальные проблемы филологии: материалы II Междунар. науч. конф. – Краснодар: Новация, – 2016, – с.8-11

[9] Тимошенко, Ю. Литературный диалог Джейн Остен с Сэмюэлем Ричардсоном: /Автореферат дисс.канд.филол. наук./ – Самара, 2013. – 19 с.

[10] Тимошенко, Ю. Литературный диалог Джейн Остен с Сэмюэлем Ричардсоном: /Автореферат дисс.канд.филол. наук./ – Самара, 2013. – 19 с.

[11] Məmmədova, A. Ceyn Ostin romanlarının dil və üslub xüsusiyyətləri: /filologiya üzrə fəlsəfə doktoru dis.avtoreferatı./ – Naxçıvan. – 2021. – 28 s.

"Ağıl və ehtiras", "Qürur və qərəz", "İnam" və "Nortenger abbatlığı" romanları da təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**: Dissertasiya işinin əsas məqsədi ingilis ədəbiyyatının görkəmli nümayəndəsi C.Ostinin roman yaradıcılığı əsasında elmi-nəzəri ümumiləşdirmələr aparmaq, onun roman poetikasının səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirməkdir. Bununla əlaqədar dissertasiyada aşağıdakı vəzifələrin yerinə yetirilməsi məqsədəuyğun hesab edilir:

– C.Ostin yaradıcılığını ədəbi-tarixi və bədii-estetik kontekstdə öyrənmək;

– C.Ostin romanlarında romantizmin və realizmin təsirini izləmək;

– C.Ostin romanlarının janr strukturu probleminə aydınlıq gətirmək;

– C.Ostin yaradıcılığında epistolyar romanın işlənmə dərəcəsini müəyyən etmək;

– C.Ostinin romanlarında üslubi-tematik problemləri öyrənmək;

– "Mensfild park" tərbiyə romanında baş qəhrəmanı əxlaq və mənəviyyatın daşıyıcısı kimi təhlil etmək;

– "Nortenger abbatlığı" əsərində qotik təhkiyədən realist romana doğru yolu izləmək;

– "Qürur və qərəz" romanında ingilis adət-ənənələrini və ingilisçilik konseptini müəyyən etmək;

– "Vatsonlar" romanında dialoqu müəllifin təhkiyə strukturu kimi təyin etmək;

– "İnam" romanında sosial-psixoloji problemlərə aydınlıq gətirmək.

**Tədqiqat metodları**. Tədqiqat işində Qərb ədəbiyyatşünaslığının C.Ostin haqqında yazılmış araşdırmalarının geniş ənənələrinə əsaslanaraq yazıçının romanlarının poetikasının öyrənilməsində müqayisəli-tipoloji, bioqrafik və analitik təhlil metodlarına istinad edilir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– İngilis ədəbiyyatının görkəmli nümayəndəsi Ceyn Ostinin roman dünyasının özünəməxsusluğu dövrünün ədəbi-tarixi, bədii-estetik kontekstinə aydınlıq gətirir;

– "İngiltərənin tarixi" əsəri parodiya və ironiyanın önə çıxması

ilə yazıçının yaradıcılığında ilkin-konseptual mərhələ kimi müəyyən edilir;

– “Sevgi və dostluq” romanında maarifçiliyin ideyaları C.Ostin yaradıcılığının mühüm mərhələsi kimi aşkarlanır;

– Romantizmin və realizmin poetikası C.Ostin romanlarının əsasını təşkil edir;

– “Ledi Syuzan” epistolyar novellanın roman janrında inikası kimi müəyyən edilir,

– “Mensfild park” tərbiyə romanı əxlaq və mənəviyyatın daşıyıcısı çıxış edir;

– “Nortenger abbatlığı”nda yazıçının qotik romanla polemikası realist romanın xüsusiyyətlərini müəyyən edir;

– “Qürur və qərəz” romanı ingilis adət-ənənələri və ingilisçilik konsepti kimi özünü göstərir;

– “Vatsonlar” romanında dialoq müəllifin təhkiyə strukturunu təşkil edir;

– “İnam” romanında sosial-psixoloji problemlər müəllifin dilmancı kimi çıxış edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində XVIII əsrin sonu – XIX əsrin əvvəli ingilis realist ədəbiyyatının formalaşma dövründə yaşayan C.Ostinin roman dünyasının bədii xüsusiyyətlərinin üzə çıxarılmasına təşəbbüs göstərilmiş, Qərb ədəbi-tənqidi fikrinə polemik münasibət təqdim edilmişdir. Eyni zamanda dissertasiya işində Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq yazıçının roman janrında yazdığı əsərlərinin sistemli və kompleks şəklində araşdırılması təmin edilmişdir. “İngiltərənin tarixi” əsərində önə çıxan parodiya və ironiya yazıçının bütün yaradıcılığının ilkin konseptual mərhələsi kimi müəyyən edilmiş, romantizmin və realizmin poetikası C.Ostin romanlarının ideya-bədii xüsusiyyəti kimi öyrənilmişdir. Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq “Mensfild park” romanının baş qəhrəmanı Küllücə arxetipi ilə paralel öyrənilmiş, tərbiyə romanının xüsusiyyəti kimi müəyyən edilmişdir. “Qürur və qərəz” romanında ingilis adət-ənənələri və ingilisçilik konseptinin bədii təcəssümü və “Vatsonlar” romanında dialoqun təhkiyə strukturu kimi öyrənilməsi də yeni yanaşma prinsipi kimi az əhəmiyyət kəsb etmir.

Qərbi Avropa, o cümlədən ingilis ədəbiyyatında müstəsna xidmətləri olan Ceyn Ostin romanlarının struktur özəllikləri və üslubi-tematik xüsusiyyətlərinin öyrənilməsi bütövlükdə ingilis ədəbi-mədəni həyatında baş verən prosesləri daha dolğun anlamağa imkan verə biləcək yeniliklərdən hesab oluna bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işində ilk dəfə olaraq monoqrafik təhlil bazasında ingilis ədəbiyyatında Ceyn Ostinin romanları nəzərdən keçirilir, yazıçının romanlarının özəllikləri təhlil və şərh edilir, ümumiləşdirmələr aparılır. Ceyn Ostinin romanları əsasında yazılmış dissertasiya işinin nəticələri ali məktəblərin bakalavr və magistr pillələrinin tədrisində, C.Ostin yaradıcılığının araşdırılmasında və roman janrının öyrənilməsində, dünya ədəbiyyatının tədrisində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi**. Tədqiqat işinin əsas nəticələri Beynəlxalq və Respublika konfranslarında məruzələr şəklində təqdim edilmiş, respublikada və xarici ölkələrdə nəşr olunan elmi jurnallarda çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya Naxçıvan Dövlət Universitetinin Jurnalistika və Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 6 səhifə, 9629 işarə, I fəsil 32 səhifə, 63377 işarə, II fəsil 31 səhifə, 61245 işarə, III fəsil 44 səhifə, 85878 işarə, nəticə 3 səhifə, 5407 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 225536 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

**“Giriş”**də mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqat metodları, elmi yeniliyi, habelə müdafiəyə çıxarılan əsas müddəalar açıqlanır, eləcə də dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiya işinin **"C.Ostinin yaradıcılığı dövrünün ədəbi-tarixi, bədii-estetik kontekstində"** adlanan I fəsli üç paraqrafdan ibarətdir. ***"XIX əsrin əvvəlləri ingilis ədəbi-tarixi prosesi və C.Ostin yaradıcılığı"*** başlıqlı ilk paraqrafın birinci bəndində ***"C.Ostinin "İngiltərənin tarixi" əsərində parodiya və ironiya ilkin-konseptual mərhələ kimi"*** öyrənilir, mövzu ilə bağlı ədəbi tənqidi fikirlərə münasibət bildirilir, adı çəkilən əsər geniş təhlilə çəkilir.

Yazıçı "İngiltərənin tarixi"ni ("The History of England", 1791) on beş yaşında qələmə almasına baxmayaraq əsərdə incə yumor hissi və uşaq sadəlövhlüyü ilə yanaşı inanılmaz yazıçı cəsarətini də görmək olur. Kiçik Ceyn XVIII əsrin melodramatik yazılarına parodiya edir, onlara gülür, bəzən isə kinayəli tonda eyham vurur. Maraqlıdır ki, gənc yaşlarında yazılan bu əsərdə sezilən satirik kinayəli ton onun yetkin dövr yaradıcılığında da özünü büruzə verir və məhz bu üslubi-tematik yanaşma onu bir yazıçı kimi digər həmkarlarından fərqləndirir. Qoldsmitin "İngiltərənin tarixi: erkən dövrdən II Georqun ölümünə qədər" əsərinə parodiya kimi yazılmış "İngiltərənin tarixi" əsərində məktəbdə tədris olunan tarix dərsliklərini ələ salır. Qeyd edilməlidir ki, məhz gənclik illərində yazılan bu əsərdə ironiya və sarkazm birmənalı şəkildə özünü büruzə verir.

C.Ostin incə lirizm və yumor hissi ilə ingilis cəmiyyətinə gülür, onu ingilis yumoruyla təsvir edir. Yaradıcılığının erkən mərhələsini müəyyən edən ironiya sonrakı dövr yaradıcılığının ideya-konseptual mərhələsi kimi özünü büruzə verir. Əsər yazıçının sağlığında işıq üzü görməsə də, illər sonra yaxın qohumu Frensis Ostin tərəfindən nəşr edilmişdir[12].

Burlesk janrında yazılan və parodiya üzərində qurulan əsərdə yazıçı ingilis monarxlarının həyatından bəhs edən kitablara gülür, tarixçilərin obyektivlik anlayışını ələ salır. Yazıçı Şarlotta Torner-Smitin novellaları ilə yanaşı, Şekspir və Şeridanın əsərlərinə ilkin mənbə kimi istinad edir və hər vəchlə bədii əsərin tarixi faktların istinad yeri ola bilməz tezisini irəli sürür. Elə bu səbəbdən o, ingilis tarixində xüsusi yeri olan kral və kraliçaları yumor hissi ilə təsvir

[12] Book Review: The History of England (Jane Austen): [Electronic resource]. URL: https://www.historynet.com/book-review-the-history-of-england-jane-austen-bh.htm

edir, onları özünəməxsus gülüş hədəfinə çevirir. Xronoloji ardıcıllıqla təsvir edilən ingilis monarxlarının həyatı uşaq sadəlövhlüyü ilə şərh edilir, söz oyunundan məharətlə istifadə edən müəllif mövqeyini açıq şəkildə ortaya qoyur.

İngilis krallarının adları ilə adlanan və on üç fəsildən ibarət olan, pamflet formasında yazılan əsəri müəllif uydurması da adlandırmaq olar. Uydurma və yaradıcı təxəyyülün sərhədlərində yazılan "İngiltərənin tarixi" əsərində hiperbola və simvollara geniş yer verilir, müəllif mövqeyinin açılmasında məcazlardan istifadə edilir. Yazıçının belə yazı üslubunu xüsusi qeyd edən Y.Qeniyeva yazır ki, "yazıçının satirik qələmi bir o qədər də maraqlı olmayan sosial tipləri – aristokratların, müxtəlif "əməlləri" olan zadəganların və özündənrazıların qalereyasını məcazlarla təsvir edə bilirdi[13].

Ceyn Ostin ənənəvi ingilis tarixinin yazılma formasından istifadə edir, ingilis monarxlarının hakimiyyəti dövrünü ardıcıllıqla sıralayır. Lakin görünən odur ki, ənənə yalnız formada özünü büruzə vermişdi, əslində isə tarixə hörmətlə yanaşmaqdansa C.Ostin İngiltərə tarixində baş verən yersiz hadisələrə kinayə ilə yanaşır, onları ələ salır. Məhz bu üzdən əsəri satirik parodiya da adlandırmaq olar.

IV Henrixlə başlayan fəsil yazıçının ironik tonunu bütün varlığı ilə büruzə verir: *"Nə deyirlər desinlər, Henrix əbədi yaşamadı. Xəstə düşən kimi oğulu, şahzadə Uelski tez gəlib tacı əlindən aldı. Bununla bağlı kral uzun bir nitq də söylədi, oxucu onun məzmununu Şekspirin pyesindən öyrənə bilər"*[14].

Ceyn Ostinin gənclik illərində yazılmış "İngiltərənin tarixi" əsəri onun sonrakı yaradıcılığında özünü büruzə verən parodiya və ironiyanın genezisi kimi dəyərləndirilməlidir. Bu əsərdə başlayan satirik, ironik üslubi-tematik ton yazıçının bədii aləminə sirayət etməklə sonrakı yaradıcılığını müəyyən edir. İroniya vasitəsilə yazıçı ingilis krallarının davranışlarına ünvanlanan münasibəti açıqlayır, məhz bu üzdən ironiya əsərdə obyektiv sarkazm və gerçəkliyin

[13] Гениева, Е.Ю. Чудо Джейн Остен // Леди Сьюзен; Уотсоны; Сэндитон: романы./ Е.Ю.Гениева. – М.: Текст, – 2007. – 299 с.
[14] Jane Austen. The History of England: [Electronic resource]. URL: https://penelope.uchicago.edu/austen/austen.html.

tənqidində universal vasitə rolunda çıxış edir.

Birinci paraqrafın ***"Ceyn Ostin yaradıcılığında maarifçiliyin bədii ideyaları: "Sevgi və dostluq" romanı"*** adlanan ikinci bəndində isə C.Ostin yaradıcılığının formalaşmasında Maarifçilik ədəbiyyatının rolundan bəhs edilir. Maarifçilik dövrünün əsas janrlarından olan epistolyar yazı üsulu C.Ostinin erkən yaradıcılığının ana xəttini təşkil edir. O, Maarifçiliyin bədii təcrübəsindən yaralanmış, eyni zamanda da onun yenidən dərk edib, yeni yaradıcı prinsipləri ilə işləmişdir. Məktub formasında yazılan belə əsərlərin bədii aləmi insanın dünya ilə münasibətləri fonunda deyil, özü-özü ilə mükaliməsi üzərində qurulur, başqa sözlə, hadisələr qəhrəmanın ətraf aləmi ilə deyil, onun daxili dünyasında baş verir. C.Ostin romantizm öncəsinin gətirdiyi duyğusal, hissiyyatlı bədii aləmi özünəməxsus şəkildə tənqid edir və "Sevgi və dostluq" (Love and Freindship) əsərinin qəhrəmanının dili ilə fikirlərini irəli sürür.

"Sevgi və dostluq" əsərini təhlilə çəkən Y.Timoşenko qeyd edir ki, əsər epik və dramatik janrların vəhdətinə yazılıb, yazıçı isə C.Riçardsonla dialoqunda həm sentimental roman janrını davam edir, həm də ənənəyə meydan oxuyur[15]. Müxtəlif formaları təhkiyə strukturunda istifadə edən C.Ostin məktub janrını xarici forma, dramı isə hekayədəki hadisələrin daxili strukturu kimi qura bilir. "Sevgi və dostluq" əsəri iki personajın bir-birinə yazdığı on beş məktubdan ibarətdir. Bu məktublar elə şəkildə yazılıb ki, oxucu süjet xəttini izləməklə yanaşı yazıçının ingilis ədəbiyyatına gətirdiyi yeniliyi də görə bilir.

C.Ostinin müasirləri sentimentalizmin hiss və həyəcanlarına aludə olub bu istiqamətdə yazır, gənc yazıçı isə inanılmaz dərəcədə mövcud stereotiplərə gülür. "Sevgi və dostluq" əsəri də sentimental duyğusallığa parodiya və ironiya ilə yanaşı satirik tonda yazılmışdı. Qələm təcrübəsi az olan və mətbuatda tanınmayan gənc yazar tənqidi görüşlərində çəkinmədən mövcud sistemə münasibətini bildirir. Bu dövrdə qələmə aldığı əsərlərdə gənc qıza xas olmayan zehni yetkinlik və tənqidi qavrayış da gözdən yayınmır.

Rus əsilli amerikalı yazıçı Vladimir Nabokov C.Ostin haqda

---

[15] Тимошенко, Ю. Литературный диалог Джейн Остен с Сэмюэлем Ричардсоном: /Автореферат дисс.канд.филол. наук./ – Самара, 2013. – 19 с.

yazır ki, *"onda qadın əl işləri və uşaq məzəsi olsa da, bu səbətdəki əl işləri ecazkardır, uşaqda isə inanılmaz dahilik var"*[16]. İngilis yazıçısı Gilbert Kit Çesterton isə "Sevgi və dostluq" əsərinin indiyə qədər nəşr edilməməsinə təəccübünü gizlətmir, *"əlimdə imkanım olsaydı özümün ev albomuna "Sevgi və dostluğ"u hissə-hissə yığardım. Onu oxuyarkən Pikoka və Maks Birbomla bağlı burlesklərə dəfələrlə gülmək olar"*[17]. Yazıçının əsərində sezilən gülüşü müəyyən edən G.K.Çesterton şübhəsiz onun kimə və nəyə ünvanlandığını bilməmiş deyildi. Bu obrazlar məhz romantizm öncəsinin sentimental duyğusallığını özündə daşıyır.

C.Ostin "Sevgi və dostluq" əsərində Maarifçilik ədəbiyyatının janrları ilə polemikaya girir, kütləvi ədəbi ştamplara gülür. Elə bu səbəbdən bu paraqrafda "Sevgi və dostuq" əsəri yazıçının ədəbi polemikası kimi nəzərdən keçirilir, realist təhkiyə üsulunun formalaşmasında ilk addım kimi qeyd edilir.

Beləliklə, yazıçı ənənəvi nəsrin statik xarakterini dağıtmaqla epistolyar janra yenilik gətirmiş, elə bu səbəbdən "Sevgi və dostluq" əsəri Ceyn Ostin yaradıcılığının mühüm mərhələsi, gələcək əsərlərinə zəmin yaradan fakt kimi dəyərləndirilməlidir.

I fəslin ikinci paraqrafı ***"C.Ostinin "Ağıl və ehtiras" romanı romantizmin poetik xüsusiyyətləri müstəvisində"*** adlanır və bu paraqrafda qeyd edilir ki, XVIII əsrin sonu XIX əsrin əvvəli Maarifçilik ədəbiyyatının sona çatdığı, romantizm və realizm kimi bədii-estetik istiqamətlərin yaranması dövrünə təsadüf edir. Bu dövr ingilis ədəbiyyatında üç böyük ədəbi-bədii istiqamətlərin eyni zamanda biri-birinə təsiri və yanaşı inkişafı ilə bağlıdır. Bu illər romantizmin ideya-estetik prinsipləri maarifçilik ideologiyasını tam sona yetirməmiş, eyni vaxtda realizmin yaranması ilə də əlamətdardır. Elə bu səbəbdən maarifçi realizmlə yanaşı ədəbi aləmdə romantizmin ideya-estetik əsasları da birgə inkişaf edirdi. Bu dövrlə bağlı olan C.Ostin yaradıcılığında adı çəkilən bədii sistemlərin əlamətlərini görmək olur. Onun əsərləri öz təbiiliyi və insan qəlbinin

---

[16] Владимир Набоков о Джейн Остен: [Электронный ресурс]. URL: http://apropospage.ru/-osten/ost14.html

[17] Писатели Англии о литературе XIX-XX вв.: Сб. статей / Сост. К.Н Атарова. – М.: Прогресс, –1981. – 410 с.

dərinliklərində gizlənən əhval-ruhiyyə ilə bağlı olub psixoloji məqamları ifadə edir. Ədəbi tənqidin C.Ostinin yaradıcılığını realist sənətin nümunəsi kimi təqdir etməsinə[18] baxmayaraq onun yaradıcılığına romantizmin estetikası da təsir göstərmişdir. Bunu yazıçının insan şəxsiyyətinə daha çox diqqət yetirməsi və onu əhatə edən mühitlə qarşılıqlı münasibətlərinə olan marağında görmək olur. Digər tərəfdən C.Ostin öz dövrünü qabaqlamış, romantizmin demonik qəhrəmanlarını və insan qəlbində çağlayan ehtiraslarını deyil, ingilis əyalətlərində yaşayan adi kənd insanından bəhs edir, onların həyatını canlandırırdı.

Yazıçının romantik bədii aləmə olan sevgisi qəhrəmanlarının ailədə, onları əhatə edən insanlar arasında seçilməsi ilə ifadə olunurdu (bu xüsusiyyət eyni zamanda da yazıçının şəxsi həyatı ilə bağlıdır)[19]. Ceyn Ostinin əsərlərində romantiklərin sənədli nəsrindən gələn intonasiyanı da hiss etmək olur. Məhz yazıçının romantik əhval-ruhiyyəyə meylini tənqid edən Şarlotta Bronte qadın həmkarını bəyənmir, onun yazı üslubunu "melodramatik" adlandırırdı[20].

C.Ostin əsərlərinin mövzuları bir qayda olaraq özünü, azadlığını axtaran romantik qəhrəmanlardır. Bu romantizmin estetikasından irəli gələn konsepsiya ilə – insan həyatında ağlın və mənəvi dəyərlərin müəyyən edilməsi ilə bağlıdır. "Mensfild park" romanın qəhrəmanı Fanni Praysın mənəvi dünyası romantik qəhrəmanın iç dünyası ilə eyniyyət təşkil edir. Romantik qəhrəman bir qayda olaraq tənhadır və o, cəmiyyətdən təcrid olur. Bu təcrid olma onun öz seçimidir, çünki hamı kimi olmaq istəmir. Onun şəxsi keyfiyyətlərindən biri də azadlığını qoruyub saxlamaqdır. Bu üzdən o, bütöv şəxsiyyətdir. C.Ostinin Fanni Praysı yetimdir, qohumları tərəfindən guya himayə olunur, lakin o, tənhadır və bu tənhalıq onun daxili dünyasını, mənəvi aləmini korlamır. Əksinə Fanni Prays onu əhatə edən riyakar, ikiüzlü insanların içində dürüst, ləyaqətli və çox mehribandır.

---

18 Lascelles, M. Jane Austen and Her Art. / M.Lascelles. – Oxford University. – 1998. – 240 p.

19 Tomalin, C. Jane Austen: A Life. / C.Tomalin. – New York: Alfred A. Knopf. – 1997. – 256 p.

20 Charlotte Bronte's Letters: [Electronic resource]. URL: https://pemberley.com/janeinfo/-janeart.-html#charlottebronte

Yazıçının 1811-ci ildə yazdığı "Ağıl və ehtiras" (Sense and Sensibility) romanında yaratdığı romantik Marianna obrazı bu baxımdan səciyyəvidir. Marianna obrazının təsvirinə yazıçı romantik əhval ruhiyyə kökləməklə oxucunun gözü önündə ideal qəhrəman canlandırır: *"Marianna çox ağıllı idi, amma eyni zamanda da çox duyğusal, hissiyyatlı və həddindən ziyada coşqulu idi. O, nə qəmdə, nə kədərdə, nə də sevinc hisslərində sərhəd bilmirdi. O, çox ürəyi açıq, mehriban, amma eyni zamanda da sirli idi. Onda nə desən var idi, bircə soyuqqanlı məntiqdən başqa"*[21].

C.Ostin Mariannanı təsvir edərkən diqqəti onun iç dünyasına, daxili aləminə ayırır, sanki oxucunu onun haqqında daha çox məlumatlı olmasına işarə edir, onu romantik qəhrəmana xas xüsusiyyətdə təqdim edir. Onun daxili dünyasında çağlayan hisslərini romantizmin üsyankar personajına yaxınlaşdırır.

Romantizmin ideal qəhrəman axtarışı C.Ostin yaradıcılığından yan keçməmiş, elə bu səbəbdən o, qəhrəmanını xoşbəxt olub "yaxşı" insanla ailə quran romantik natura şəklində canlandırır və beləcə, romantizmin estetik prinsiplərindən olan qəhrəmanın ideallaşdırılmasına gətirib çıxarır.

***"C.Ostinin romanları realizmin poetikası kontekstində"*** adlanan üçüncü paraqrafda yazıçının yaradıcılığı realizmin problemləri ilə öyrənilir. Qeyd edilir ki, C.Ostinin romanlarında qaldırılan problemlər sonralar ingilis realistləri Ç.Dikkens, U.Tekkerey, E.Qaskel yaradıcılığının əsasını təşkil edəcək. Elə bu səbəbdən C.Ostinin romanları XIX əsrin əvvəli ingilis realist nəsrinin təməli hesab edilir. Ədəbi tənqid məhz bu vacib məqamı nəzərə alaraq yazır ki: *"Baxmayaraq ki, ingilis ədəbiyyatında roman janrının formalaşması XVIII əsrdə Daniel Defo, Samuel Riçardson və Henri Fildinqin yaradıcılığı ilə bağlı idi, məhz Ceyn Ostinin gündəlik həyatın adi hadisələrinə realist yanaşması sayəsində roman yetərincə müasir xüsusiyyətlər qazandı"*[22].

C.Ostin hansısa mənada öz dövrünü qabaqlamış, realizmin

---

[21] Austen, J. Sense and Sensibility. / J.Austen. – London: William Collins. – 2010. – 400 p.

[22] The New Encyclopedia Britannica. / – London: Encyclopedia Britannica. V.1. – 1992. – p.458

yaranma mərhələsində iştirak edərək ilk realist roman yazarı kimi ədəbiyyatda silinməz iz buraxmışdır. Amerikanın Con Hopkins universitetində çalışan Ostinşünas alim Sintiya Qriffin də dəfələrlə yazıçının erkən yaradıcılığını ingilis realizmi ilə əlaqələndirir və yazır ki, *"realizm onun erkən romanlarında açıq şəkildə özünü göstərir"*[23].

Yazıçı romanlarında sosial gerçəkliyi təcəssüm edir, insanı əhatə edən riyakar, mənfəətpərəst, yaltaq ingilis cəmiyyətinin iç üzünü göstərirdi. Onun diqqəti əyalət zadəganları, hərbçilər, kənd ruhanilərinin həyatına yönəlirdi. Elə bu səbəbdən yazıçı qəhrəmanın xarakterinin açılmasında və inkişafında sosial faktların təsirini önə çəkir, sosial mühitin və maddi təminatın oynadığı roldan söz açır. Yazıçı "Nortenger abbatlığı" romanında ingilis cəmiyyətində hökm sürən dəbdəbəni, zəngin həyata üstünlük verən meşşan mühitini bütün çılpaqlığı ilə təsvir edir, gerçəkliyin təsvirində amansız olur.

C.Ostinin təsvir prinsipi sonralar formalaşacaq realizmin estetikasına yaxın idi və bu səbəbdən o, öz müasirləri olan realizmin nümayəndələrini qabaqlaya bilmişdir. Yazıçı realist üslubu ilə əxlaq dərsi keçmir, nəyisə öyrətmirdi, o, daha çox gənc qəhrəmanın xarakterinin formalaşmasında daxili dünyasının dəyişkənliyini göstərirdi. Bu üslub ingilis realist romanın ilk nümunələri kimi dəfələrlə ədəbi tənqid tərəfindən qeyd edilir. Məlumdur ki, realizmin bir cərəyan kimi tam formalaşması 1830-cu ilə təsadüf edirsə, C.Ostin 1794-cü ildən 1816-cı ilə qədər yaradıcılığını davam etdirmiş, 1811-ci ildən isə nəşr olunmuşdur. Bu illər Avropa ölkələrində romantizm cərəyanı hökm sürürdü. C.Ostinin yeni üslubu Tekkerey və Dikkens romanlarından yarım əsir əvvəl yarandığına görə onun romanları realizmin ilkin ideya-bədii xüsusiyyətləri kimi dəyərləndirilməlidir.

Xarakterlərin realist təsviri yeni dövrün yazıçısı kimi C.Ostinə problemləri yaradan səbəblərə nəzər salmağa, insanın qəlb dünyasını açmağa şərait yaradırdı. Yazıçı "Qürur və qərəz" romanında ciddi problemlərdən yumor və ironiya ilə danışırdı. Məlumdur ki, belə yanaşma prinsipi realizmin xüsusiyyətləri sırasında yer alır.

---

[23] Griffin, C. The Development of Realism in Jane Austen's Early Novels // ELH. – Baltimore: The Johns Hopkins University Press, – 1963. Vol. 30, No. 1, – p.37.

Dissertasiya işinin **"C.Ostin romanlarında janr strukturu problemi"** adlanan II fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf ***"Epistolyar novellanın roman janrında inikası: "Ledi Syuzan" romanı"*** adlanır. Ceyn Ostinin yaradıcılığa başladığı dövrdə epistolyar janrdan istifadə etdiyi məlumdur. Bu həmçinin onunla bağlıdır ki, məktub şəklində yazılan romanlar o dövrün ədəbiyyatında aparıcı janr idi. C.Ostin epistolyar janra öz dəsti xəttini əlavə edərək "təmiz" təhkiyə strukturuna sevimli yazıçısı S.Riçardsondan fərqli olaraq yeni üslub qatdı. O, ingilis burjua cəmiyyətində hökm sürən eybəcərlikləri tək məktub şəklində verməyin düzgün olmadığını dərk edirdi. Bu səbəbdən mövcud təhkiyədə həyatın sosial və ailədaxili problemlərinin epistolyar janrla bir araya sığmadığını görürdü.

Onun epistolyar janrda yazdığı əsərləri sırasında "Ledi Syuzan" (Ledy Susan), "Elinor və Marianna" (Elinor and Marianna) və "Sevgi və dostluq" (Love and Freindship) romanlarındakı hadisələr məktublarla əks edilir, müəllif dilmancı kimi görünür[24]. Lakin yazıçı tədricən "təmiz" məktub strukturundan imtina edərək, nizamı sarsılmış bir cəmiyyəti araşdırmağa imkan verən təhkiyə strategiyasını gözə alır və sırf məktublarla deyil, romanlara daxil olan məktublarla cəmiyyətdəki problemlərdən, ailədaxili tənəzzüldən, sosial və ictimai böhrana səbəb olan insanlararası münasibətlərdən bəhs edir. Epistolyar romanın məhdud cəhətlərindən biri də personajların biri-biri ilə hansı şəkildə əlaqədə olduğunu görməməsidir. Oxucu hadisələrin müxtəlif personajlar tərəfindən yozumunu yalnız personajın baxış bucağından öyrənə bilirdi. Oxucu personajların əslində kim olduğunu, hansı baxış bucağının ola biləcəyini və ya nəyə diqqət etməli olduğunu da görmür. Epistolyar əsər elə qurulur ki, əsərdəki məktub müəllifləri özləri də bilmədən oxucuya hər şeyi ötürürlər. Onlar məlumatları yazdıqları məktublarda açır, harada olduqları, nə baş verdiyi və özlərini necə hiss etdiklərindən bəhs edirlər. Yazıçı isə öz növbəsində məktub müəllifinin gerçək üzünü göstərməyə imkan verir, özlərini ifadə edərkən guya təsadüfən sirrin açılmasına şərait yaradırdı. Elə bu səbəbdən C.Ostinin epistolyar romanlarını öyrənən Ş.Normandin

[24] La Faye, D. Jane Austen: The World of Her Novels. / D.Le Faye. – London: Frances Lincoln Publishers. –2002. – 320 p.

yazır ki, *"o, məktubları əksər müasirlərindən daha yaxşı formada istifadə etmək bacarığına malik idi"*[25].

C.Ostinin digər romanları kimi "Ledi Syuzan" da ailə və nikah, insanın cəmiyyətdə yeri, sosial statusu məsələləri ilə bağlıdır. C.Ostinin sağlığında İngiltərənin fərdi sosial iqtisadiyyata keçidi ilə əlaqədar olaraq evlilik qadınlar üçün getdikcə daha çox əhəmiyyət kəsb edirdi. Qadınların sosial və iqtisadi azadlığı az idi və bu baxımdan əsərin qəhrəmanının sosial status üçün törətdiyi "əməlləri" başa düşüləndir.

Qırx bir məktubdan ibarət olan roman bütünlükdə ingilis cəmiyyətində mövcud olan eybəcərliyin, yalan və riyakarlığın parodiyasıdır. *"İkiüzlü və məkrli Ledi Syuzan, dünyanın ona olan nifrətinə baxmayaraq, intriqalar qurur..."*[26] və ya məktubların birində *"İki kişinin eyni vaxtda və bu dərəcədə ona aldanması çətin ki, tapılar"*[27] ifadəsi baş qəhrəmanın xarakterik xüsusiyyəti kimi göstərilir. XVIII əsr ingilis epistolyar janrına öz dəsti-xətini gətirən C.Ostin sələfi S.Riçardsondan fərqli olaraq bu janrdakı "təmiz" təhkiyə strukturunu dəyişməyə nail oldu. Yazıçı cəmiyyətdəki problemlərdən, ailədaxili tənəzzüldən, sosial və ictimai böhrana səbəb olan insanlararası münasibətlərdən bəhs edir, qəhrəmanlar vasitəsilə viktorian cəmiyyətinin məddahlıq, yaltaqlıq, ikiüzlülük qarşısındakı ifrat kövrəkliyini, işbazların isə yüksək səlahiyyət sahibi olduğunu göstərir.

Dissertasiyanın II fəslinin ***"C.Ostinin "Mensfild park" tərbiyə romanında Fanni-Küllücə obrazı əxlaq və mənəviyyatın daşıyıcısı kimi"*** adlanan ikinci paraqrafında yazıçının tərbiyə romanında əxlaq və mənəviyyat problemləri öyrənilir, Küllücə obrazı ilə ədəbi paralellər aparılır. "Küllicə" möcüzəyə inanan oxucu üçün xeyir və şərin mübarizəsində qalib gələn tipik məhəbbət nağıldır. Məlumdur ki, "Küllücə" nağılı dünyada ən çox yayılan süjetlərdən biridir və onun folklor variantlarına bir çox xalqların yaradıcılığında rast gəlinir.

---

[25] Normandin, S. Jane Austen's Epistolarity // ANQ: A Quarterly Journal of Short Articles, Notes and Reviews, – 2014. 27 (4), – p.160

[26] Austen, J. Lady Susan. / J.Austen. – Harper Perennial Classics. – 2005. – p.12

[27] Yenə orada, – s.49

Romanın qəhrəmanı Fanninin mənəvi dünyası zəngindir və o, insanlara öz daxili dünyasının səsi ilə yanaşır, onlara dəyər verəndə qəlbinin səsini dinləyir. Sakit və rəhmdil Fanninin əksi olan qohumları Maria və Culia bacıları qeyri-ciddi və bəzən də ağılsız hərəkətlər edir.

Biri-birinə əks qütblərdə dayanan personajların əksi "Küllücə" nağılından gələn arxetipik obrazlarla bağlıdır. Məhz bu ideyanı vurğulayan V.Nabokov yazırdı ki: *"bütün utancaq gözəlliyi, təvazökarlığı, dözümlülüyü və nəhayət amiranəliyi ilə seçilən gənc xanımların prototipi məntiqi olaraq həyatın gözlənilməz hadisələri üzərində qələbə çalacaq, – şübhəsiz onların prototipi Küllücədir. Köməksiz, tənha, gözdən uzaq, hamı tərəfindən unudulmuş və lakin sonda baş qəhrəmanın zövcəsinə çevriləcək"*[28]. Küllücə arxetipi ağlın, mehriban rəftarın, rəhimliliyin cazibəsi kimi gözəllikdən üstündür və bu keyfiyyətlərə malik qızlar sonda xoşbəxtliyə qovuşur. C.Ostinin Fanni Prays obrazı "Küllücə"nin süjetinə əsaslanır. Romanın süjeti özünün nağıl prototipinə uyğun gəlir. Bu ilk növbədə onunla aşkarlanır ki, Fanni Prays yetim qız olmasa da, varlı zadəganların gözündə heç bir sosial dayaqları olmayan, kasıb, aşağı təbəqənin qızıdır. Onu qəbul edən ailənin hər bir üzvü Fanninin imkansız, sosial cəmiyyətdə yeri olmayan, təhsil almamış gənc kimi dəyərləndirir. Yeni ailəsi ilə yaşayan Fanni Maria və Culianın yersiz davranışlarına dözür, Tomun kobud rəftarına göz yumur. Zəif iradəli ser Tomas isə bir ata kimi evdəki atmosferi dəyişdirə bilmir. Ser Tomas Fanniyə mehriban davransa da öz qızını ögey anasının və uşaqlarının zülmündən qoruya bilməyən Küllücənin atası kimi ailə içə münasibətləri görə bilmir. Küllücəni ögey anası və bacıları evin qulluqçusuna çevirir, Fanni də xalası missis Norrisin və xalası qızlarının ona qarşı soyuq və laqeyd rəftarı ilə üzləşir. Göründüyü kimi, Fanni Küllücə kimi xalası evinə yetim kimi sığınır. Xalası və xala qızlarının yanında Fanni özünü narahat hiss edir. Bütün bunlar azmış kimi Fanni nağıl qəhrəmanı kimi guya daha ağıllı və gözəl rəqibləri ilə qarşılaşır. Əgər Fanni üçün əvvəl bu rəqiblər Maria və

---

[28] Лекции по зарубежной литературе. Джейн Остен. "Мэнсфилд-парк": [Электронный ресурс]. URL: http://nabokov-lit.ru/nabokov/kritika-nabokova/lekcii-po-zarubezhnoj-literature/mensfild-park.htm

Culia bacıları idisə, sonra Edmundun aşiq olduğu Meri Kroford da bu sıraya qoşulur. Fanninin "rəqibləri" sosial statusda daha yüksəkdə dayansalar da, xarici görünüşləri ilə ondan daha gözəl görünsələr də, Fannini mehriban və ağıllı olması fərqləndirir. Məlumdur ki, nağıl qəhrəmanı olduqca mehribandır. O, təmiz qəlbli, mehriban, təvazökar və səbirli idi. Bu xüsusiyyətlərinə görə nağıl qəhrəmanı sonda öz xoşbəxtliyinə qovuşur. Küllücənin insani keyfiyyətləri Fanniyə də məxsusdur. Fanni də ona olan laqeyd və yersiz münasibətlərə görə qisas hissi ilə yaşamır, əksinə ailənin hər bir üzvünü sevir və onların ağılsız hərəkətlərinə acıyır. Yaşadığı Bertramlar ailəsindəki münaqişələrdən qaçır, özünə qarşı mənfi münasibətlərə dözür. C.Ostin "Küllücə" nağılından gələn süjet xəttini birbaşa saxlamamış, qəhrəmanın səbir və amiranəliyi ilə yanaşı ağlını və özgürlüyünü qoruyub saxlamasına da üstünlük vermişdir. C.Ostinin romanında Fanni öz nağıl qəhrəmanından zəhmətə qatlaşması, mehriban və qayğıkeş olmasını mənimsəmişdisə, yazıçının yaratdığı Fanni kimi azad və iradəli, savadlı və ağıllı keyfiyyətləri ilə fərqlənir. C.Ostinin Küllücəsi zəhmətkeş, ağıllı, öz amalı və arzuları uğrunda sona qədər mübarizə aparan bir obrazdır. Öz şahzadəsi – Edmundla qarşılaşması isə savadlı və bilgili olmasına yol açır, şəxsi keyfiyyətlərini artırır. Bu baxımdan C.Ostinin qəhrəmanı sosial yüksəlişə qədər ucalır. Elə bu səbəbdən Küllücə-Fannini iki müxtəlif nəzər nöqtəsi ilə dəyərləndirmək olar. Küllücə obrazı təvazökar və səbirli olmaqla digər qadınlardan fərqləndiyinə görə uğurlu və arzuladığı nikahla mükafatlandırılır və bundan sonrakı həyatını xoşbəxtlik içindən davam edir. Xoşbəxt sonluqla bitən nağıl qəhrəmanı Küllücə-Fanni Prays obrazı əxlaq və mənəviyyatın daşıyıcısı kimi dəyərləndirilməlidir.

Dissertasiyanın II fəslinin üçüncü paraqrafı isə ***"Nortenger abbatlığı"nda qotik romanla polemika: qotik təhkiyədən realist romana doğru"*** adlanır. Bu paraqrafda qotik romanla bağlı məsələlərə aydınlıq gətirilir və adı çəkilən roman təhlilə çəkilir. XVIII əsrdə ingilislər qotik romanları sevilən əsər kimi oxuyur, onun müəllifini tanıyır və ona rəğbət bəsləyirdilər. İngilis tədqiqatçısı R.Hörd yazır ki, bu janra olan maraq ilk növbədə qorxu və dəhşət

yaradan yeniliyə və qeyri-adiliyə heyranlıq idi[29]. İngilislər qotik romanda milli əlamətləri, əsil "ingilisçiliyi" görürdülər. Elə bu səbəbdən onlar qotik romanlarda qədim monastırların, qəsrlərin qalıqlarına tamaşa edir, beləcə keçmiş haqqında düşünür, onun geri dönüşünü arzulayırdılar. Digər tərəfdən qotik roman müəllifləri insanın tale qarşısında çıxılmazlığını önə çəkir, ölüm, iztirab, əzab hislərinin qaçılmaz olduğunu göstərirdi.

Coan Klingel Rey yazır ki, "Nortenger abbatlığı" qotik romanın satirasıdır[30]. Tara Uolles isə əsəri qotik romanlara parodiya adlandırır[31]. Son illərin tədqiqatları bu əsəri xüsusilə qotik romana parodiya kimi qeyd edir və bir çox ingilis qotik romanları ilə paralellər aparırlar [32]. Bu tədqiqat işləri sırasında bizi maraqlandıran Meri Uoldronun "Jane Austen and the Fiction of her Time"[33] əsəridir. Bu araşdırmanın müəllifi C.Ostinin yaradıcılığını realizmə bağlayır və qeyd edir ki, onun ilk tədqiqatçıları ədəbiyyatda hökm sürən romantizmi əsas gətirərək yazıçının əsərlərindəki satira və istehzanı realizmin xarakterik xüsusiyyəti kimi görmür, elə bu səbəbdən də onun ilk romanı olan "Nortenger abbatlığı"nı romantizmin qotik janrı ilə bağlayırlar. Bizim fikrimizcə Meri Uoldron vacib bir məqamı görür. Yazıçının yaradıcılığında xüsusi rolu olan bu məqam ondan ibarətdir ki, "Nortenger abbatlığı" romanında istifadə edilən satira və sarkazm realist romanın xüsusiyyəti kimi çıxış edir. Bu və bundan sonra yazılan bütün romanlarda yazıçı satiradan istifadə etməklə dövrünün eybəcərliklərinə gülür, onları ələ salır.

Beləcə, C.Ostin mövcud ədəbi normaları dağıdır, onlara

---

[29] Hurd, R. Letters in Chivalry and Romance. / R.Hurd. – New York: Gale ECCO, – 2010. – 130 p.

[30] Ray, J.K. Austen's Northanger Abbey // The Explicator, – 2003. Vol. 61, İssue 2, – p.79-81.

[31] Wallace, T.G. "Northanger Abbey" and the limits of parody // Studies in the Novel. 1988. Vol. 20, No. 3. p.262-273.

[32] May, L.D. Parodies of the Gothic Novel. / L.D.May. – N.Y.: Arno Press, – 1982. – 131 p; Mansell, D. The novels of Jane Austen: an interpretation. / D.Mansell. – New York: Macmillan, – 1993. – 338 p.

[33] Waldron, M. Jane Austen and the Fiction of her Time./ M.Waldron. – Cambridge University Press, – 1999. – 195 p.

yenidən baxır və özünün yaradıcılıq yolunu müəyyən edir. Bu baxımdan yazıçının qotik romanla polemikasında realist romana doğru keçidi görmək olur.

C.Ostin realizmin ifadə vasitələrindən olan burlesklə dövrünün qotik romanlarını ələ salır, eyni zamanda da gerçək həyatın uydurma, təxəyyül dünyasından üstün olduğunu vurğulayır. Oxucu Ketrin obrazıyla yeni real qəhrəman tipi ilə rastlaşır.

"Nortenger abbatlığı" romanında oxucu Ketrinin xarakterindəki dəyişikliyi görür, real dünyanın adət və ənənələrini, yazılmamış qanunlarını dərk etdiyinin şahidi olur. Yazıçı real lövhələrlə Batda baş verən hadisələri və insanlararası münasibətləri realist boyalarla açmağa çalışır və cəmiyyətdə hökm sürən sosial status probleminə də münasibət bildirir. Dövrünün eybəcərliyini təsvir edən yazıçı ilk növbədə pulun, maddiyyatın insan həyatında oynadığı mühüm rolu vurğulayır və elə bu səbəbdən sosial statusun nə qədər vacib olduğunu təsvir edir. Yazıçı romanda gerçək həyatı, real insanları və onların həyati təcrübələrini təsvir edir. Elə bu səbəbdən deyə bilərik ki, "Nortenger abbatlığı" romanı qotik romanın xüsusiyyətlərindən daha çox realist romanın ideya-estetik prinsipləri ilə bağlıdır. C.Ostinin əsəri qəhrəmanın həyatındakı müəyyən bir məqamın, müəyyən bir təcrübənin xırda təfərrüatlarına diqqət yetirən erkən realizm üslubunu nümayiş etdirir. C.Ostin komik şəkildə qotik romanı təqlid edir, amma eyni zamanda da patriarxal həyat tərzi altında mövcud olan cəmiyyəti, onun qayda-qanunlarını tənqid edir. Realist romanlarda insanın real həyat təcrübəsi unikal və dəyərli anlayışdır və elə buna görə hər bir insanın həyat təcrübəsi bənzərsizliyi ilə maraq doğurur. C.Ostinin "Nortenger abbatlığı" romanında yaratdığı obraz da bu sıradandır.

Dissertasiyanın III fəsli **"C.Ostin romanlarının üslubi-tematik problemi"** adlanır və üç paraqrafdan ibarətdir. ***"C.Ostinin "Qürur və qərəz" romanında ingilis adət-ənənələri və ingilisçilik konseptinin bədii təcəssümü"*** adlanan birinci paraqrafda qaldırılan problem öyrənilir. Qeyd edilir ki, konsept insanın mental dünyasına aid olub onun mədəni-tarixi yaddaşını ifadə etdiyi üçün özünəməxsus xarakterə malikdir. Konseptlər xalq yaddaşında kollektiv irsi, onun mədəni kodlarını daşıyır. Elə bu səbəbdən kollektiv yaddaş

konseptlərin saxlandığı yer, nəsildən-nəslə ötürülən, özündə milli xarakteri daşıyan anlayışdır. Kollektiv düşüncəni əks edən konseptlər mətnin daxili formasının etimoloji mənasını assosiasiya və dəyərlər prinsipi ilə ifadə edir. Bu sıraya həmçinin dəyərlər sistemi də aiddir ki, biz onun mənasını ardıcıl mədəni-tarixi proses boyu da görə bilərik.

C.Ostinin 1813-cü ildə işıq üzü görmüş "Qürur və qərəz" romanın bədii aləmində ingilis cəmiyyətini, orada hökm sürən qayda-qanunları və həyat tərzini konseptlərlə izləmək olur. O da qeyd edilməlidir ki, C.Ostinin "Qürur və qərəz" romanında konsept xalq mədəniyyətini əks etdirən düşüncə və yaddaş kimi çıxış edir. Oxucu əsərdə ingilis cəmiyyətinə xas nəzakəti və təkəbbürü, riyakarlığı və təvazökarlığı, yumor hissini və sarkazmı, həmçinin ingilis aristokratiyasına xas kübar, ciddi, təmkinli, ədalətli və soyuqqanlı obrazları ilə də tanış olur. Cəmiyyətdəki mövqeyinə, mənşəyinə və maddi rifahına görə insan haqqında rəy formalaşdıran sinfi münasibətlər də bu sırada yer alır. İngilis cəmiyyətində aristokrat təbəqənin sosial və mədəni mənsubiyyətindən təsirlənən konseptlər sırasında ingilis həyat tərzi və milli mentalitetin təcəssümü də bu sıradandır. Elə bu səbəbdən C.Ostinin "Qürur və qərəz" romanı ingilis mədəni-tarixi fonunu əks edən əsər kimi maraq doğurur.

Elizabet ağıllı, nəzakətli və azad fikirli, həmçinin qürurlu bir qızdır. O, xoşbəxtliyi üçün mübarizə aparmağa hazırdır. Darsi isə təkəbbürlü və soyuqqanlı, həmçinin sərt, eyni zamanda da ədalətli və təmkinli bir insandır. Darsi belə hesab edir ki, Bennetlər ailəsi onun yüksək statusuna uyğun gəlmir və elə bu səbəbdən onlara yuxarıdan baxır, ilk görüşdən onları sevmir.

Darsi ciddi və soyuqqanlı xarakteri ilə ingilis centlmenini təcəssüm edir. O, həmçinin təmkinli davranışları ilə diqqəti cəlb edir. Qeyd etməliyik ki, hər iki konsept ingilis mentalitetinə söykənir və yazıçı konsepti kimi "Qürur və qərəz" romanının bədii aləminə aiddir. Yazıçı Darsidən əsl ingilis centlmeninə xas ədalət hissini də əsirgəmir. Ədalət konsepti əsərin maraqlı ideya xətlərindən biridir. Darsi Lidiyanın mister Uikemlə qoşulub qaçmasına seyrçi kimi yanaşmır, onları tapır, müəyyən pul müqabilində onu evliliyə təhrik edir və beləcə ailəni biabırçılıqdan qoruyur. Darsinin ədalətli və

dürüst olması Elizabetin ona olan mənfi münasibətini dəyişir.

Nəzakət konsepti ingilis xarakterinə xas xüsusiyyətdir və o əsasən fikir bildirmək və ya məlumat ötürməklə yanaşı, həmsöhbətlə münasibətdə nəzakəti ifadə edir. Bir ingilisin davranışı, ilk növbədə, hörmət qaydaları ilə həmsöhbətinə nəzakət göstərmək ehtiyacı ilə diktə olunur. Elizabetin bacısı Ceynə qarşı nəzakətli davranışı mərhəmət və qayğıdan doğur. Bu həmçinin bir ingilisin ehtiyatlı davranışı, öz hərəkətləri və ya sözləri ilə başqasının heysiyyətini incitməmək istəyi ilə bağlıdır. Elizabet obrazı özündə ingilis nəzakətini təcəssüm edən konseptlərdəndir. Konsept təkcə bədii ünsiyyət vasitəsi deyil, həmçinin etno-mədəni dəyərlərin reprezentasiyasıdır. Məhz onun vasitəsi ilə biz bədii mətnlərdə yazıçının yaradıcılığında üslubi-tematik problemləri də öyrənə bilərik. Eyni zamanda da konseptlər vasitəsilə biz hər hansı bir xalqın mental düşüncəsini, etnopsixologiyasını anlaya bilərik. Konseptlər insan şüurunda, yaddaşında saxlanılır və təkcə dil vasitəsilə ifadə olunmur, həmçinin onun davranışlarında, həmsöhbəti ilə münasibətlərində də özünü büruzə verir. Onlar fərdi, milli, kollektiv və universaldır.

***“Vatsonlar” romanında dialoq müəllif təhkiyəsinin strukturu kimi”*** adlanan III fəslin ikinci paraqrafında adı çəkilən əsərdəki müxtəlif dialoqlara aydınlıq gətirilir və əsərin ideyası kimi dəyərləndirilir.

Bədii dialoq əsərdə müəllif, oxucu və personajlar arasında mürəkkəb ünsiyyət növü kimi çıxış edir və əsərin dinamikasını müəyyən edir. Bu baxımdan bədii dialoqun funksional özəlliyi müəlliflə oxucu arşında kommunikasiyanın yaranmasına xidmət edir, eyni zamanda da xarakterlərin açılmasında müstəsna rol oynayır. C.Ostinin romanlarında dialoqun özünəməxsusluğu onun estetik funksiyası ilə müəyyən edilir. Yazıçının yaratdığı dialoq forması onun bədii sisteminin xüsusiyyəti kimi önə çıxır. Onun romanlarında dialoqdan istifadə çox vaxt məlumat xarakteri daşıyır və hadisələrin inkişafına, süjetin açılmasına, personajların davranışlarına aydınlıq gətirir, onların biri-birinə olan münasibətlərini müəyyən edir.

Dialoqlarda C.Ostin qəhrəmanları öz dünyagörüşlərini, etik və əxlaqi keyfiyyətlərini üzə çıxarırlar. Reallığın obyektiv təsviri yazıçını ona gətirib çıxarır ki, o, özünü personajların dialoqları vasitəsilə ifadə

edir. Elə bu səbəbdən yazıçının əsərlərində təhkiyəçinin subyektiv fikirləri deyil, qəhrəmanın baxış bucağı və hadisələrə münasibəti üstünlük təşkil edir. C.Ostinin yaratdığı dialoqlarda insan xarakterləri açılır, müxtəlif həyati hadisələrdə davranış modelləri göstərilir. Bir qayda olaraq dialoqlar əsərin əsas strukturu kimi süjetin inkişafına təkan verən gündəlik hadisələri səsləndirir.

Müəllif bütün əsər boyu emosional dialoq tiplərindən olan izahat dialoqundan istifadə edir. Belə dialoqlarda personajlar bir-biri ilə hisslərini açıq şəkildə ifadə edirlər. Digər personajlarda bu tip dialoq ünsiyyəti yoxdur. Belə dialoqlar romanda baş verən hadisələr haqqında məlumatı genişləndirməyə kömək edir, danışılan faktlar qəhrəmanın tarixçəsini açır, personajların keçmişinə nəzər salmağa imkan verir. Bədii ünsiyyətin özünəməxsusluğu müəllifin də nəzərdə tutduğu və onun konkret ünvana yönləndirdiyi xəyali oxucudur. Dialoqun strukturunu, məzmununu və bütövlükdə bütün əsəri başa düşmək üçün müəllifin şüurlu şəkildə oxucuya ünvanlandığı seçimlər çox vacibdir.

C.Ostinin bu əsərdə ən çox istifadə etdiyi izahat şəklində qurulan dialoqdur. Bu dialoqda daha çox anladılır və bu səbəbdən müəllif onu nəqli cümlələrlə əvəz edir. Belə halda o adi, gündəlik danışığı xatırladır və burada fikir, məlumat mübadiləsi baş verir. Həmsöhbətlər arasında intonasiya müəllifdən daha çox diqqət tələb edir. C.Ostinin əsərdə istifadə etdiyi dialoqlardan diri də etiraf-dialoqdur. Adından da göründüyü kimi belə dialoqlarda müəllif etiraf prinsipini seçir və personajlar arasında söhbətlərdə biri digərinə öz etiraflarını edir. Etiraf dialoqlarını monoloq da adlandırmaq olar. Bu halda müəllif qısa replikalarla, anlayışlı ifadələr işlədir və qoşma hekayə də əlavə edə bilər.

Əsərin qarşılıqlı anlaşma vasitəsi ilə yaranan dialoqu başa düşən və anlayan insan qarşısında etiraflara bənzəyir. Belə dialoqlarda nə replikalara, nə də etirazlara rast gəlinir. C.Ostinin əsərdə qurduğu dialoqlardan biri də qarışıq dialoqdur. Belə dialoqlarda adətən etiraf, mübahisə və monoloq elementlərinin birləşməsini görmək olur. Elizabetin etirafı, monoloqu bacısı Emma tərəfindən anlaşıqlı qarşılansa da ona etiraz edir, bu halda onun etirazı sorğu-sual dialoquna bənzəyir. İki bacı arasında müraciət-etiraz dialoqu Elizabeti

daha inandırıcı olmağa sövq edir. Elizabetin etirafları bacısını inandırmaq məqsədi daşıyır.

Beləliklə, görmək olur ki, “Vatsonlar” romanındakı dialoq müəllif təhkiyəsinin strukturu kimi çıxış edir.

Dissertasiyanın III fəslinin sonuncu paraqrafı isə ***“C.Ostinin “İnam” romanında sosial-psixoloji problemlər”*** adlanır və qeyd edilir ki, sosial-psixoloji romanlar insanın şəxsiyyətində baş verən metamorfozlarla əlaqəli olub psixoloji xarakterin açılmasını və onu əhatə edən aləmlə qarşılıqlı əlaqəsini əks edir. Belə romanlarda müəllif və oxucunu maraqlandıran sosial problemlər qəhrəmanın daxili dünyasında baş verən incə nüanslarla təsvir edilir. Qəhrəmanın gözlənilməz davranışları gizli səbəblərlə təsvir edilir və ən vacib şərtlərdən biri kimi qəhrəmanın duyğuları, şüurlu və şüursuz impulsları şəxsiyyət və cəmiyyətin qarşılıqlı əlaqəsində göstərilir. Müəllif bu halda tək qəhrəmanın daxili aləmini deyil, həmçinin cəmiyyətin müxtəlif sahələrinə, müxtəlif sosial qruplara aid olan insanların psixologiyasını da araşdırır. Beləliklə, müəllif insanın psixologiyasını açır, sosial, fəlsəfi və mənəvi problemləri qaldırır, bəşəri dəyərləri önə çəkir. C.Ostin bir yazıçı kimi kənar faktlardan daha çox qəhrəmanın daxili dünyasına diqqət yetirir. Görünür müəllif simvolik məna daşıyan belə narrativ üsullara daha çox üstünlük verir. Bu şəkildə qurulan təhkiyənin öz “mənası”, öz “səsi” və öz “yanaşması” var. Çox vaxt onlar qəhrəmanın səsi ilə eyniyyət təşkil edir və qəhrəmanın daxili səsinin davamı kimi də görünür. Bir çox hallarda C.Ostin qəhrəmanın xarakterindəki ayrı-ayrı cizgilərinə və ağlının gücünə o qədər diqqət yetirir ki, sanki qəhrəmanın işlətdiyi sözdən daha çox onun daxili səsinin mahiyyəti danışır.

C.Ostinin 1817-cı ildə qələmə aldığı “İnam” (Persuasion) romanını hiss və həyəcanların, düşüncə və emosiyaların çulğalaşdığı əsər kimi dəyərləndirmək olar. Əsərin çox hissəsi baş qəhrəmanı anladan müəllif təhkiyəsi və qəhrəmanin monoloqu üzərində qurulub. Bir çox hadisələrə oxucu məhz qəhrəmanın düşüncələri, mühakimələri ilə baxır və qavrayır. Oxucu bu mühakimələrin nəticəsi kimi qəhrəmanın daxili dünyasını “görür”, hisslərini, düşüncələrini “oxuyur”, sonda isə onun şübhə və qorxularını birgə yaşayır. Bu səbəbdən Enn Eliotun taleyi heç də göründüyü kimi sadə

deyil, onun qəlbi keçmişin xiffətini çəkir, əlindən buraxdığı fürsətin təəssübünü yaşayır.

C.Ostin psixoloji təsviri personajın qəlb dünyasında baş verən həyəcanların psixi vəziyyətində və şəxsiyyətindəki dəyişikliklərin təsvir ilə ötürə bilir. Yazıçı qəhrəmanin daxili aləmini, başqa sözlə hissləri və düşüncələrini incə və inandırıcı psixoloji təhlillərlə verir.

Müəllif sevgi və tənhalığın, günah hissi ilə xoşbəxtlik axtarışları arasında qalan və keçmişdə etdiyi səhvi düzəltmək istəyən gənc qızın daxili iztirablarını sosial-psixoloji problemlərin təsviri ilə həyata keçirir.

C.Ostin stereotiplərlə yaşayan cəmiyyəti qəhrəmanın öz dili ilə ifşa edir. Süjetin hərəkətverici qüvvəsi sosial mühitin yaratdığı çətinliklər fonunda təsvir edilən personajın daxili ziddiyyətləridir. Bu baxımdan "təbii ki, yazıçı qəhrəmanın təbiətindəki mürəkkəbliyi ətraf gerçəkliklə əlaqələndirməyi unutmur. Realist psixologizmin səciyyəvi əlamətlərindən başlıcası öz ifadəsini məhz qəhrəmanın duyğu və düşüncələrini sosial gerçəkliklə vəhdətdə götürməkdə, daxili aləmlə obyektiv reallıq arasında səbəb nəticə əlaqələrini ciddi şəkildə nəzərə almaqda tapır" fikrini irəli sürən Muxtar İmanovla [34] razılaşmamaq olmur. M.İmanovun haqlı olaraq qeyd etdiyi fikirlər C.Ostinin "İnam" romanının qəhrəmanına da aid edilməlidir. C.Ostin qəhrəmanın psixoloji durumunu özünü tənqiddə, ağıl və hisslərin arasında qalan və əzab çəkən insan kimi təqdim edir. Vicdanın səsi personajın öz davranışlarına və hərəkətlərinə yenidən baxmağa vadar edir. Yazıçı qəhrəmanın qəlb dünyasına sərbəst şəkildə nüfuz edir, onun hərəkətlərinin səbəbini, əhval-ruhiyyəsini və hisslərinin şərhini verir. C.Ostin həmçinin qəhrəmanın iki baxış bucağının müqayisəsi əsasında əxlaqi problemlərin həlli yollarını axtarır. Enn Eliot obrazında onun daxili əzablarını, onunla birgə müşayiət olunan duyğularını, xatirələrini və istəklərini də canlandıra bilir. Enn Eliotun hekayəsi ağlın hisslər ilə mübarizəsindən başlayır və göründüyü kimi onunla da bitir, lakin bu dəfə onun qərarı duyğuların ağılla harmonik vəhdəti ilə nəticələnir. Başqa sözlə, Enn Eliotun məntiqi və əqidəsi bütün roman boyu heç vaxt maddi hisslərlə əvəzlənmir, o, yalnız

---

[34] İmanov, M. Müasir Azərbaycan nəsrində psixologizm. Monoqrafiya. / M.İmanov. – Bakı: ADU, – 2021. – 168 s.

mənəvi borc və ailə qayğılarına əsaslanırsa, sonda duyğuları da qələbə çalır.

C.Ostinin realistcəsinə təsvir etdiyi "İnam" romanı dərin psixologizmlə müşayiət olunur. Psixologizm bu halda qəhrəmanın daxili aləminin, hisslərinin, emosiyalarının bədii təsvir vasitəsilə köçürülməsini ifadə edir.

"İngilis yazıçısı Ceyn Ostinin romanlarının poetikası" adlı dissertasiya işində aparılmış tədqiqat zamanı aşağıdakı **nəticə**lər əldə edilmişdir:

– Ceyn Ostinin ilk qələm təcrübəsi olan "İngiltərənin tarixi" əsəri sonrakı yaradıcılığında mayak rolunda çıxış edir. Məhz bu əsərdən başlayan parodiya və ironiyanın istifadəsi yazıçının yaradıcılığının bədii qaynaqları kimi önə çıxır. Bu əsərdən başlayan satirik, ironik üslubi ton yazıçının sonrakı yaradıcılığını müəyyən edir.

– Ceyn Ostin "Sevgi və dostluq" romanında maarifçilik ədəbiyyatının janrları ilə polemikaya girir, kütləvi ədəbi dəbləri ələ salır. Bu səbəbdən "Sevgi və dostluq" əsərində yazıçının dövrün janrları ilə ədəbi polemikasını görür, məhz bu roman vasitəsilə C.Ostin yaradıcılığında maarifçi-realizmin ideya-estetik prinsiplərini aydın şəkildə qavrayır, onun yaradıcılığını maarifçiliyin idealları üzərində formalaşması qənaətinə gəlirik.

– Ceyn Ostin yaradıcılığı maarifçi rasionalizmlə realizmin və romantizmin əlamətlərini özündə əks etdirir. Romantizmə bağlılığı çox vaxt qəhrəmanların daxili dünyasına daha çox diqqət yetirməsi, ideal qəhrəman axtarışları ilə özünü büruzə verir. Yazıçı romantizmin ideal qəhrəman axtarışlarını romantizmin bədii-estetik prinsipi –personajların ideallaşdırılması ilə həyata keçirir.

– Yazıçı "Qürur və qərəz" romanında realist romanın kompozisiya prinsiplərindən yararlanır. Xarakterlərin realist təsviri C.Ostinə problemləri yaradan səbəblərə nəzər salmağa şərait yaradır. Yazıçı ciddi problemlərdən yumor və ironiya ilə danışır, bəzən personajları qrotesklə təsvir edir.

– XVIII əsr ingilis epistolyar janrına yenilik gətirən C.Ostin bu janrdakı "təmiz" təhkiyə strukturunu dəyişməyə nail olur. Elə bu səbəbdən "Ledi Syuzan" romanında məktublar müəllifin dilmancı kimi çıxış edir. C.Ostin yaşadığı cəmiyyəti araşdırmağa imkan verən

təhkiyə strategiyasından istifadə edərək cəmiyyətdə hökm sürən sosial və ictimai böhrandan söz açmağa nail olur.

– Ceyn Ostin "Mensfild park" tərbiyə romanında "Küllücə" nağılından gələn süjet xəttini istifadə edir, eyni zamanda əsərə qəhrəmanın ağıl və ləyaqət kimi keyfiyyətlərini əlavə edir. Baş qəhrəman Fanni nağıl qəhrəmanı Küllücə kimi mehriban və qayğıkeş olması ilə yanaşı yazıçının yaratdığı savadlı qız obraz kimi də fərqlənir. Digər tərəfdən roman xoşbəxt sonluqla bitən nağıl süjeti – əxlaq və mənəviyyatın daşıyıcısı kimi aşkarlanır.

– "Nortenger abbatlığı" romanında C.Ostin romantizmin dəbdə olan qotik romanı ilə polemikaya girir və qotik təhkiyədən realist romana doğru yol gəlir. Komik şəkildə qotik romanı təqlid etsə də, patriarxal həyat tərzi altında mövcud cəmiyyəti, onun qayda-qanunlarını tənqid edir. Realist romanda insanın real həyat təcrübəsi vacib elementdir. Bu romanda da qəhrəmanın şəxsiyyət təkamülü, həyat təcrübəsi yazıçı tərəfindən realizmin prinsipi kimi təqdim edilir.

– "Qürur və qərəz" romanının təhlili onu göstərir ki, C.Ostinin bu əsərində ingilis adət-ənənələri və ingilisçilik konsepti öz bədii təcəssümünü tapır. Konsept vasitəsilə qəhrəmanların davranışlarında, həmsöhbətləri ilə münasibətlərdə fərdi, milli, kollektiv yaddaşın saxlanıldığı aşkarlanır. Bu konseptlər də öz növbəsində ingilis adət-ənənələrindən gələn ədalətli, soyuqqanlı, təmkinli, təvazökar, nəzakətli davranışlarla ifadə edir.

– "Vatsonlar" romanında müəllif baş verənləri şərh etmir, onları dialoq vasitəsilə oxucuya ötürür. Belə dialoqlar personajların nitqini rəngarəng edir, digər tərəfdən isə qəhrəmanları xarakterizə edən canlı danışıq dilini həyata keçirir. Həmçinin dialoq obraz yaratma vasitəsi kimi mənəvi-ruhi və zahiri görünüşün müfəssəl təsvirini verir. Bu baxımdan dialoq əsərdə müəllifin təhkiyə strukturu kimi çıxış edir.

– C.Ostinin "İnam" romanında sosial-psixoloji problemlər daxili monoloq vasitəsi ilə həyata keçir və yazıçı ondan qəhrəmanın düşüncələrini önə çəkmək üçün istifadə edir. Amma eyni zamanda da müəllif monoloquna da yer verir və bu şəkildə qəhrəmanın təəssüratlarını, hiss və duyğularını açmağa nail olur. Həmçinin

qəhrəmanın emosional-psixoloji vəziyyətini psixologizmlə ifadə edir, onu qəhrəmanın daxili aləminin, hisslərinin, emosiyalarının təsviri ilə üzə çıxarır.

**Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:**


1. Ceyn Ostinin "İngiltərənin tarixi" əsərində parodiya və ironiya // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, – 2019. №4. – s. 58-63;
2. "Sevgi və dostluq" əsəri Ceyn Ostin yaradıcılığının mühüm mərhələsi kimi // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2020. №2, – s.309-316;
3. Ceyn Ostin yaradıcılığında romantizmin əlamətlərinə dair // "Gənc tədqiqatçıların III Respublika elmi-praktik konfransı". – Bakı: Azərbaycan Universiteti, – 15 mart, – 2020, – s.110-111;
4. Ceyn Ostinin "Ağıl və ehtiras" romanının poetik xüsusiyyətləri // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri, – 2020. №2, – s.106-109;
5. Sosial-psixoloji problemlər təhkiyə strukturu kimi (C.Ostinin yaradıcılığı əsasında). // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər. Dil və ədəbiyyat seriyası, – 2021. №1, – s.279-283;
6. Jane Austen's novels in the context of the poetics of realism // Материалы XI Международной научно-практической конференции «Лабиринты реальности». – Канада, Монреаль, Украина: Изд-во: CPM «ASF», – 15 февраль, – 2021, –с.15-17;
7. Ceyn Ostinin "Mensfild park" romanında Küllücə arxetipi // – Bakı: Azərbaycan Universiteti, "İpək yolu", – 2021. №2, – s.133-141;
8. Ceyn Ostin yaradıcılığında epistolyar roman janrı ("Ledi Syuzan" romanı əsasında) //– Naxçıvan: Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, – 2022. №1 (114), – s.62-68;
9. Dialogue in J.Austin's Novel "The Watsons" as the Structure of the Author's Narrative" // – Warszawa: Polska, Colloquium Journal, – 2022. №26 (149), – p.27-30;
10. C.Ostinin "Qürur və qərəz" romanında milli kimlik – ingilisçilik konsepti // "Azərbaycan xalqının etnogenezi və milli kimlik

məsələləri" adlı Beynəlxalq konfrans. – Bakı: Azərbaycan Universiteti, – 28 oktyabr, – 2022, – s.45-48;
11. The image of women in Jane Austen's novels // – Italy: Annali d'Italia Florence, – 2023. №50, – p.32-34;
12. "Nortenger Abbatlığı" romanı: Qotik təhkiyədən realist romana doğru // Akademik Tarih ve Düşünce Dergisi, – 2024. 11(4), – s.2226-2238.

Dissertasiyanın müdafiəsi 07 noyabr 2024-cü il tarixində saat 10:00-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 04 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.10.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 46846 işarə

Tiraj: 100 nüsxə